# VƏTƏN SİZƏ OĞUL DEDİ



***Gizir Novruzov Amin***

*Gizir Novruzov Amin Taciddin oğlu 16.08.1996-cı ildə Balakən rayonu Qullar kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 03.11.2020-ci ildə Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*

***Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



*Hüseynov Əsgər Vaqif oğlu 23.12.1998-cü ildə Balakən rayonu Kortala kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən müharibəyə cəlb olunan Əsgər Hüseynov 26.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*

***MAXE Osmanov Məhəmməd***



*MAXE Osmanov Məhəmməd Seymur oğlu 27.10.1994-cü ildə Ağdaş rayonu Ərəbocağı kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 04.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*

*Şəhidimiz ailəli idi. Şəbnəm adlı qızı və yaxın aylarda dünyaya gələcək övladı Vətənə əmanətdir.*

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



*Gizir Əlisoltanov Vahid Tahir oğlu 10.11.1994-cü ildə Balakən rayonu Gərəkli kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 25.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*

***Vətən müharibəsinin qəhrəman şəhidi İslam Eyvazov***

*Eyvazov İslam Həsən oğlu 07.04.1999-cu ildə Naxçıvan şəhərində anadan olmuşdur. 2006-cı ildə Naxçıvan şəhər 15 saylı orta məktəbə daxil olmuşdur. 2015-ci ildə isə həmin məktəbin 9-cu sinfini bitirmişdir. Təhsil müddətində həm də 7 il Ərtoğrul Cavid adına musiqi məktəbinin fortopiano ixtisası üzrə dərs almışdır.*

*9-cu sinfi bitirdikdən sonra Naçıvan şəhər hərbi liseyinə sənəd vermiş, lakin qəbul olunmamışdır. 2017-ci ildə həqiqi hərbi xidmətə yola düşmüşdür. Həqiqi hərbi xidməti bitirdikdən sonra 2020-ci ildə yenidən hərb sahəsinə qayıdır, bu dəfə MAXE HQ əsgər kimi. N saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmət göstərməyə başlayır. Kəşfiyyatçı kimi xidmətə başlayan İslam Eyvazov 2 ay sonra vətənini qorumaq üçün ön cəbhəyə yola salınır. Cəbrayıl, Füzuli, Xocavənd istiqamətində ön cəbhədə vuruşur. 09.11.2020-ci ildə Xocavənddə şəhid olur.19 Noyabr 2020-ci ildə Qaraxanbəyli kənd məzarlığında dəfn olunub.*



*Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı, Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.*

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



*Həsənov Elvin Əlizadə oğlu 07.11.1994-cü ildə Ağdaş rayonu Mürsəl kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən döyüşlərə yollanan Elvin 08.11.2020-ci il tarixdə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.*

***Yüzbaşıyev Cavid***



*Yüzbaşıyev Cavid Cavanşir oğlu 20.07.1995-ci ildə Balakən rayonu Hənifə kəndində anadan olub. Vətən müharibəsi başlanan zaman səfərbərlik ximəti tərəfindən müharibəyə cəlb olunan Nəcməddin Suqovuşan istiqamətində gedən döyüşlərdə igidlik və mərdlik göstərərək qəhrəmancasına Şəhid olub.*